Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# İSLAHAT İCMALI

# MALİYYƏ BAZARLARINA DƏSTƏK PROQRAMI

## XÜSUSİ BURAXILIŞ

May, 2020



Azərbaycan Respublikası Prezidenti
cənab **İLHAM ƏLİYEV**

“Keçən il makroiqtisadi vəziyyət sabit olmuşdur, inflyasiya cəmi 2,6 faiz təşkil etmişdir. Baxmayaraq ki, çox böyük sosial paket icra edildi. Eyni zamanda, problemli kreditlərin qaytarılması üçün böyük vəsait təmin edildi. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədə qalmışdır.

Makroiqtisadi vəziyyətin sabit qalması üçün bu il də əlavə tədbirlər görüləcək. Mərkəzi Bank 2019-cu il ərzində öz valyuta ehtiyatlarını artırıbdır.

Bütövlükdə, Mərkəzi Bankın 6,2 milyard dollar səviyyəsində valyuta ehtiyatları var”.

# MÜNDƏRİCAT

MALİYYƏ-BANK SİSTEMİ ÜZRƏ DƏSTƏK PROQRAMININ ƏSAS SEKTORAL İSTİQAMƏTLƏRİ .......... 3

01_BANK SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ

FİZİKİ ŞƏXSLƏRİN (SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAYAN) DƏSTƏKLƏNMƏSİ ÜZRƏ .......... 4

PANDEMİYADAN BİRBAŞA TƏSİRLƏNMİŞ SAHİBKARLIQ SUBYEKTLƏRİNİN DƏSTƏKLƏNMƏSİ ÜZRƏ (30 SENTYABR 2020-Cİ İLƏDƏK) .......... 5

REQULYATİV TƏTİL, MALİYYƏ İNKLÜZİVLİYİ, KREDİT EKSPANSİYASI VƏ MALİYYƏ DAYANIQLIĞINA DƏSTƏK ÜZRƏ .......... 6

NAĞDSIZ ÖDƏNİŞ XİDMƏTLƏRİNİN STİMULLAŞDIRILMASI VƏ ƏMƏLİYYAT XƏRCLƏRİNİN AZALDILMASI ÜZRƏ .......... 7

02_SIĞORTA SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ

SIĞORTA XİDMƏTLƏRİNƏ ÇIXIŞIN TƏMİNİ, REQULYATİV TƏTİL VƏ MALİYYƏ DAYANIQLIĞINA DƏSTƏK ÜZRƏ .......... 8

03_KAPİTAL BAZARLARINA DƏSTƏK TƏDBİRLƏRİ

REQULYATİV TƏTİLLƏRİN VERİLMƏSİ VƏ GÜZƏŞT TƏDBİRLƏRİ ÜZRƏ .......... 9

# MALİYYƏ-BANK SİSTEMİ ÜZRƏ DƏSTƏK PROQRAMININ ƏSAS SEKTORAL İSTİQAMƏTLƏRİ



Bank sisteminin
**kompleks tədbirlərlə**
dəstəklənməsi




**Sığorta sisteminə**
dəstək tədbirləri




**Kapital bazarı**
**iştirakçılarına** dəstək
tədbirləri

requlyativ tətil, istehlakçı hüquqlarının qorunması, dijitallaşmaya keçidin sürətləndirilməsi, maliyyə inklüzivliyinin artırılması, onlayn xidmət kanallarının təşviqi, maliyyə intizamının qorunması, kredit ekspansiyasının təşviqi, maliyyə dayanıqlılığına dəstək

# 01_BANK SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ

## FİZİKİ ŞƏXSLƏRİN (SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAYAN) DƏSTƏKLƏNMƏSİ ÜZRƏ



- İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) vəsaitləri hesabına 01 mart 2020-ci il tarixinə kimi verilmiş **ipoteka kreditlərinin** 30 sentyabr 2020-ci ilədək **restrukturizasiyası**

- Borclulardan **əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmamasının** banklara tövsiyə edilməsi

- İKZF-nin vəsaitləri hesabına 01 mart 2020-ci il tarixinə kimi verilmiş ipoteka kreditlərinin restrukturizasiyası zamanı **kreditin keyfiyyətinin pisləşdirilməməsi**

- 01 mart 2020-ci il vəziyyətinə keyfiyyəti qənaətbəxş olan borcalanların **kredit tarixçəsinin pisləşdirilməməsi**

# 01_BANK SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ






## PANDEMİYADAN BİRBAŞA TƏSİRLƏNMİŞ SAHİBKARLIQ SUBYEKTLƏRİNİN DƏSTƏKLƏNMƏSİ ÜZRƏ (30 SENTYABR 2020-Cİ İLƏDƏK)

- 01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və kredit faizləri subsidiyalaşdırılan sahibkarların kreditləri restrukturizasiya olunduqda **kreditlərin keyfiyyətinin** 30 sentyabr 2020-ci ilədək **pisləşdirilməməsi**

- 01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və dövlət fondlarının (SİF, AKİA) vəsaitləri hesabına verilmiş **kreditlərin pisləşdirilməməklə restrukturizasiyası**

- Borclulardan əlavə **cərimə faizi, dəbbə pulu və digər ödənişlərin hesablanmaması və tutulmamasının** banklara tövsiyə edilməsi

- 01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan borcalanların **kredit tarixçəsinin pisləşdirilməməsi**

# 01_BANK SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ

## REQULYATİV TƏTİL, MALİYYƏ İNKLÜZİVLİYİ, KREDİT EKSPANSİYASI VƏ MALİYYƏ DAYANIQLIĞINA DƏSTƏK ÜZRƏ

- Sistem əhəmiyyətli banklar üzrə məcmu kapitalın adekvatlıq əmsalının 01 yanvar 2021-ci ilədək **12%-dən 11%-dək azaldılması**
- Digər banklar üzrə məcmu kapitalın adekvatlıq əmsalının 01 yanvar 2021-ci ilədək **10%-dən 9%-dək azaldılması**
- 01 yanvar 2021-ci ilədək kontr-tsiklik kapital buferinin **0.5%-dən 0 %-dək endirilməsi**
- **Bazar və əməliyyat risklərinin** 01 yanvar 2021-ci ilədək nəzərə alınmaması
- Bankların öz vəsaitləri hesabına 2020-ci il 1 aprel tarixinə kimi verilmiş ipoteka kreditləri üzrə risk koofisentinin **100%-dən 50%-dək azaldılması**
- **Dividend ödənişlərinin** 30 sentyabr 2020-ci ilədək təxirə salınmasının banklara tövsiyə edilməsi
- **İstehlak kreditləri** üzrə əlavə kapital tələblərinin 01 yanvar 2021-ci ilədək təxirə salınması
- **Kredit təşkilatlarında inspeksiyaların** (hərtərəfli və tematik) xüsusi hallar istisna olmaqla 30 sentyabr 2020-ci il tarixinədək təxirə salınması
- Tibbi ləvazimat və avadanlıqlar istehsalçılarına verilən kreditlərinin risk səviyyəsinin **100%-dən 20%-dək azaldılması**



# 01_BANK SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ

## NAĞDSIZ ÖDƏNİŞ XİDMƏTLƏRİNİN STİMULLAŞDIRILMASI VƏ ƏMƏLİYYAT XƏRCLƏRİNİN AZALDILMASI ÜZRƏ

- Banklararası ödəniş sistemlərində banklardan tutulan **xidmət haqlarının** 30 sentyabr 2020-ci il tarixinədək **50%-ə qədər endirilməsi**




- Ödəniş xidmətləri üzrə **tariflərin azaldılmasının** banklara tövsiyə edilməsi

- **Ekvayer tariflərinin** 30 sentyabr 2020-ci il tarixinədək **50%-ə qədər endirilməsinin** tövsiyə edilməsi

# 02_SIĞORTA SİSTEMİ ÜZRƏ KOMPLEKS DƏSTƏK TƏDBİRLƏRİ

## SIĞORTA XİDMƏTLƏRİNƏ ÇIXIŞIN TƏMİNİ, REQULYATİV TƏTİL VƏ MALİYYƏ DAYANIQLIĞINA DƏSTƏK ÜZRƏ

- İcbari Sığorta Bürosuna (İSB) **təqvim haqlarının ödənişinə** 30 sentyabr 2020-ci ilədək **möhlət verilməsi** üçün İSB-yə tövsiyə edilməsi

- Sığortaçılarda səyyar **yoxlamaların** xüsusi hallar istisna olmaqla 30 sentyabr 2020-ci ilədək **təxirə salınması**



- Könüllü sığorta müqavilələri üzrə **sığorta haqlarının ödənilməsində** 30 sentyabr 2020-ci il tarixinə kimi **möhlətin verilməsi**

- Xüsusi karantin rejimindən birbaşa təsirlənən sığortalılar üzrə 01mart 2020-ci il tarixdən sonra yaranmış və 90 günü aşmış **debitor borclarının** sığorta ehtiyatı və sığortaçının öz vəsaitlərinin hesablanmasında 01 yanvar 2021-ci ilədək **nəzərə alınması**

- Sığortalıların müraciətlərinin elektron poçt **elektron formada** qəbul edilməsi

- Digər tədbirlər(elektron xidmətlərin təmini, sığortaçıların hüquqlarının qorunması və s. üzrə)

# 03_KAPİTAL BAZARLARINA DƏSTƏK TƏDBİRLƏRİ

## REQULYATİV TƏTİLLƏRİN VERİLMƏSİ VƏ GÜZƏŞT TƏDBİRLƏRİ ÜZRƏ

İnvestisiya şirkətlərinə **kapital tələbləri üzrə** 01 yanvar 2021-ci tarixinədək güzəştlərin edilməsi

İnvestisiya şirkəti və fond birjasına **prudensial hesabatlar üzrə** 30 sentyabr 2020-ci il tarixinədək güzəştlərin verilməsi

Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin **fəaliyyətinin yoxlanılmasının** 30 sentyabr 2020-ci ilədək təxirə salınması

Fond birjasında səhmlərin və istiqrazların təkrar bazarında bağlanan əqdlərin, habelə repo əməliyyatlarının qeydiyyatı üzrə Milli Depozit Mərkəzinə ödənilən **tariflərin** 30 sentyabr 2020-ci il tarixinədək **ləğvi**

Bakı Fond Birjasında 01 aprel 2020-ci il tarixindən 01 yanvar 2021-ci il tarixinədək listinqə daxil olan korporativ istiqrazlar üzrə **listinq tariflərinin ləğvi**

Qiymətli kağızların kütləvi təklif üsulu ilə fond birjasında yerləşdirilməsi zamanı **tələb olunan sənədlərin** 01 yanvar 2021-ci il tarixinədək **minimallaşdırılması**





iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

